




# "Dəmir yumruq" yerindədir

## Sülh razılaşmasını ləngitməklə Ermənistan heç nəyə nail ola bilməyəcək və tənəzzülünü daha da dərinləşdirəcək

**"Postmünaqişə dövründə də gündəliyi biz diktə edirik!". Bu ciddi mesajı Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində bəyan edən Azərbaycan Prezidenti İlham Əliyev qətiyyətlə bildirib: "Əgər istəmirlərsə ki, onların başı bir daha əzilsin, otursunlar və bu tərəfə heç baxmasınlar... Ermənistan faşistləri - bizə hürməyə çalışan faşistlər bilsinlər ki, hər an onların dərsini verməyə bir daha hazırıq".**

Bu il iyunun 26-da - Silahlı Qüvvələr Günündə Kəlbəcər rayonuna səfəri çərçivəsində komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə iştirak edən Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev qeyd edib ki, Vətən müharibəsində Ermənistanı məğlub etməyimiz onlar üçün dərs olmalıdır. "Biz bu mifi də dağıtdıq və göstərdik ki, güclü iradə olan yerdə, xalq-iqtidar birliyi olan yerdə, hərbçilərin vətənpərvərliyi olan yerdə heç kim bizim qabağımızda dura bilməz. Əgər yenə də Ermənistanda revanşist qüvvələr baş qaldırsa, bilməlidirlər ki, onları nələr gözləyir", - deyə Prezident vurğulayıb.

Bu gün Nikol Paşinyan hökuməti başda baş nazirin özü olmaqla xarici işlər naziri, parlament sədri miqyasında, sözdə "sülh sazişi imzalamaq" adı altında "bəyanatlar" səsləndirilirsə, həmin "bəyanatların" hələ də əməli sübutunun, reallığının aşkar tərəfi görünməməkdədir. Əgər belə olsa idi, 2020-ci ilin 10 noyabrında, 2021-ci ilin 11 yanvarında imzalanmış üçtərəfli sənədlərdəki bəndlər, şərtlər dərhal icra olunardı və vaxt süni şəkildə bu qədər uzadılmazdı. Yəni fakt budur ki, dövlət başçımızın da vurğuladığı kimi, Ermənistan hakimiyyətinə etibar etmək, inanmaq doğru seçim deyil. Bu günə qədər vasitəçilərin təşəbbüsləri ilə aparılan danışıqlar, imzalanan bəyanatlar məhz erməni tərəfinin yersiz, əsassız və mənasız cəhdləri ilə nəticəsiz qalır.

Ekspertlər bildirirlər ki, Ermənistan postmüharibə qaydalarına zidd olaraq sülhə dəstək vermək əvəzinə, təxribatların artırılması ilə 44 günlük müharibədə məğlubiyyətin qisasını almağa çalışır. Bütün beynəlxalq tribunalarda minalı ərazi xəritələri müzakirə edilsə də, Ermənistan xəritələr barədə heç bir əməkdaşlıq etmək istəmir. Minalı ərazilərin xəritələrini verməmək Ermənistanın azərbaycanlılardan qisas almaq siyasətinin başqa formada davamıdır. Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin bağlanmasını Avropa İttifaqı, Rusiya, eyni zamanda Amerika da istəyir və ABŞ dövlət katibi Azərbaycan Prezidenti ilə telefon danışığında sülh müqaviləsinin bağlanmasına dəstək verməyə hazır olduqlarını bildirib. Ancaq Ermənistandakı revanşist qüvvələr vəziyyəti mürəkkəbləşdirmək, bununla da sülh müqaviləsinin bağlanmasına mane olmaq istəyir. Amma onlar buna nail ola bilməyəcəklər. Prezident yenidən Ermənistana xəbərdarlıq etdi: "Biz Ermənistanda həm öz qüvvələri, həm də onların tərəfdaşlarının köməyi ilə bütün hərbi quruculuq cəhdlərini çox diqqətlə izləyirik. Buna görə mən səmimi və açıq demişəm ki, əgər bizim təhlükəsizliyimizə azacıq da olsa təhdid görsək, bu təhdid harada, Ermənistan ərazisinin hansı dərinliyində olsa da, biz onu dərhal, sadəcə, məhv edəcəyik. Bunu hamı, ilk növbədə, Ermənistan rəhbərliyi bilməli və başa düşməlidir".

Görünən odur ki, II Qarabağ savaşında Azərbaycana uduzan Ermənistan öz məğlubiyyəti ilə barışmaq istəmir. Bu, həm bəzi rəsmi şəxslərin mövqeyindən, həm də Ermənistan cəmiyyətinin davranışlarından açıq-aydın hiss olunur. Üstəlik, sərhədlərin delimitasiya və demarkasiya məsələlərinə məhəl qoymamaq, ciddiyyət göstərməmək bu qənaətə gəlməyə əsas verir. Ermənistan məğlubiyyət acısı yaşayır, ölmüş erməni əsgərlərinin valideynlərinin üsyanı ilə qarşı-qarşıyadır, ölkədə siyasi böhran bitməyib, digər tərəfdən bölgədə yeni vəziyyət meydana çıxıb. Amma Ermənistan Azərbaycana qarşı savaş açmaq niyyətilə lüzumsuz hərəkətlər edir. Hazırda, müharibədən sonrakı mərhələ sülh müqaviləsinin imzalanmasıdır ki, bölgədə regional əməkdaşlığın yaranması, yerinə yetirilməli olan iri iqtisadi layihələr də məhz bu sülh müqaviləsinə bağlıdır. Azərbaycan regionun inkişafına maraqlı olduğundan özündən asılı olan bütün addımları atmağa hazırdır, hətta iri nəqliyyat dəhlizlərinin açılmasına daha tez nail olmağa çalışır. Təəssüf ki, Ermənistan öz məsuliyyətini dərk etmir, üçtərəfli Bəyanatın tələblərindən yayınır, mənasızcasına xəyallar qurur, Qərb dövlətlərindən siyasi dəstək gözləyir, özünə müdafiəçilər axtarır.

Ermənistan bir həqiqəti anlamalıdır ki, hazırda şərtləri Azərbaycan diktə edir. Üstəlik, qalib kimi, haqlı tərəf olaraq diktə edir və beynəlxalq ictimaiyyət, hüquq və təşkilatlar da Azərbaycanın yanındadır. Yəni, siyasi riyakarlıq etməklə, üçtərəfli bəyanat və sazişlərdəki bəndləri pozmaqla, öhdəliklərdən yayınmaqla, Zəngəzur dəhlizinin açılışını yubatmaq və digər mənasız addımlar atmaqla Ermənistan heç nəyə nail ola bilməyəcək və öz məğlubiyyətini, tənəzzülünü daha da dərinləşdirəcək. Azərbaycan çox güclüdür və bu güc tükənməzdir, "Dəmir yumruq" da yerindədir. Ermənistanın nəyisə başa düşməməyi isə onun öz qəbahəti, ağılsızlığıdır. Ermənistan rəhbərliyi hazırda düzgün qərarlar verməli, revanşistlərin fitvasına uymamalı, sülh müqaviləsinin bağlanmasında maraqlı olmalı, reallıqla barışmalıdır.

**Mustafa KAMAL,
"Respublika".**